DOI: 10.36719/2706-6185/04/21-24

**Nuran Elmar qızı Mehtiyeva**
Bakı Dövlət Universiteti
magistrant
mehdiyevanuran@gmail.com

# AZƏRBAYCANLA GÜRCÜSTAN ARASINDA İQTİSADİ - SİYASİ ƏLAQƏLƏRİN TARİXİ

**Xülasə**

Məqalədə Azərbaycan-Gürcüstan əlaqələrinin tarixindən, iki ölkə arasında iqtisadi əlaqələrin dinamikasından, 1990-cı illərdə baş verən hadisələrin iki ölkə arasında iqtisadi münasibətlərə təsiri, iki ölkə arasında enerji siyasətindən bəhs edilir. Gürcüstanın Azərbaycan və Türkiyə ilə strateji tərəfdaşlığını rəsmiləşdirən məqamlardan biri kimi 2002-ci ilin aprelində üç ölkənin imzaladığı «Trabzon razılaşması»nı göstərmək olar. Azərbaycanla Gürcüstan arasında diplomatik əlaqələr 1992-ci il noyabrın 18-də qurulmuşdur. 1995-ci ilin fevral ayında Bakıda Gürcüstan səfirliyinin və 1996-ci ilin mart ayında Tbilisdə Azərbaycan səfirliyinin açılması iki qonşu dövlət arasında diplomatik əlaqələrin genişlənməsi üçün yeni imkanlar yaratdı. Bundan başqa, 2010-cu ildə Gürcüstanın Batumi şəhərində Azərbaycanın, 2013-cü ildə isə Azərbaycanın Gəncə şəhərində Gürcüstanın baş konsulluqları açılıb.
***Açar sözlər:*** *enerji siyasəti, iqtisadi və maliyyə çətinliyi, coğrafi amil*

**Nuran Elmar Mehtiyeva**
Baku State University
master student
mehdiyevanuran@gmail.com

## History of economic and political relations between Azerbaijan and Georgia

**Abstract**

The article discusses the history of Azerbaijani-Georgian relations, the dynamics of economic relations between the two countries, the impact of the events of the 1990s on economic relations between the two countries, and energy policy between the two countries. The "Trabzon Agreement" signed by the three countries in April 2002 can be cited as one of the moments that formalized Georgia's strategic partnership with Azerbaijan and Turkey. Diplomatic relations between Azerbaijan and Georgia were established on November 18, 1992. The opening of the Georgian embassy in Baku in February 1995 and the Azerbaijani embassy in Tbilisi in March 1996 created new opportunities for the expansion of diplomatic relations between the two neighboring states. In addition, in 2010, the consulates of Azerbaijan were opened in the city of Batumi, Georgia, and in 2013, the consulates of Georgia were opened in the city of Ganja, Azerbaijan.
***Keywords:*** *energy policy, economic and financial difficulties, geographical factor*

## Giriş

Sovet İttifaqının dağılması nəticəsində müstəqillik əldə edən Azərbaycan Respublikası milli mənafe və dövlətin maraqlarını təmin etmək məqsədi ilə öz xarici siyasət kursunu müəyyən etdi. O dövrdə bir sıra çətinliklər-xarici siyasəti həyata keçirən peşəkar kadrların olmaması, beynəlxalq iqtisadi əlaqələrin qurulması üçün bazarın, şəraitin yoxluğu və maliyyə çətinlikləri mövcud idi. Xarici siyasət sahəsində mövcud olan maneələri dəf edən dövlətimiz həmsərhəd ölkələrlə beynəlxalq hüququn universal normalarına uyğun olan münasibətlər qurmağa başladı. Bu istiqamətdə atılan ilk addımlardan biri qonşu Gürcüstan dövləti ilə Azərbaycan arasında səfirlik səviyyəsində diplomatik əlaqələrin qurulması olmuşdur. Azərbaycanla Gürcüstan arasında diplomatik əlaqələr 1992-ci il noyabrın 18-də qurulmuşdur. 1995-ci ilin fevral ayında Bakıda Gürcüstan səfirliyinin və 1996-ci ilin mart ayında Tbilisdə Azərbaycan səfirliyinin açılması iki qonşu dövlət arasında diplomatik əlaqələrin genişlənməsi üçün yeni imkanlar

yaratdı. Bundan başqa, 2010-cu ildə Gürcüstanın Batumi şəhərində Azərbaycanın, 2013-cü ildə isə Azərbaycanın Gəncə şəhərində Gürcüstanın baş konsulluqları açılıb (Arıxov, 2008: 7).

Azərbaycan Respublikası dünya praktikasında ilk dəfə olaraq dənizin dərinliklərindən sənaye üsulu ilə neft çixaran ölkə kimi tanınmışdır. Ümummilli lider Heydər Əliyev neft strategiyasında Qərblə əməkdaşlığa üstünlük verdiyi üçün Gürcüstan ərazisindən neftin ixracı üçün tranzit yolu kimi istifadəsi gündəmə gəldi. Beləliklədə Gürcüstan Azərbaycan arasında neft sahəsində iqtisadi əməkdaşlıq yeni prioritet qazandı. Bu sahədə ilk uğurlu addım XX əsrin əvvəllərində Bakı-Batumi neft kəmərinin inşası ilə atıldı. Bakı-Batumi neft kəməri Avropada birinci, dünyada isə ikinci magistral neft kəməri idi. Gürcüstan və Azərbaycan arasında səmərli əməkdaşlığa aid misallar çoxdur. Lakin Bakı-Supsa neft kəməri, şübhəsiz ki, indiki mərhələdə bu əməkdaşlığın zirvəsidir. 1995-ci ildə Heydər Əliyev bir sıra çətinliklərə baxmayaraq, "Bakı – Supsa neft kəmərinin" inşası və Xəzər neftinin Qərb istiqamətində ixracı haqqında tarixi qərar qəbul etdi. Bakı-Supsa neft kəmərinin uzunluğu 830 kilometr, layihə gücü 5,1 milyon ton, gündəlik maksimum ötürmə gücü 115 min bareldir. Supsada hər birinin tutumu 250 min barel olan 4 terminal tikilmişdir (Arıxov, 2008: 68).

2000-ci il oktyabrın 18-də Tbilisdə dövlət dəftərxanasında "Bakı – Tbilisi – Ceyhan" əsas ixrac neft kəmərinin çəkilişi haqqında müqavilənin imzalanma mərasimi keçirildi. Kəmərin tikintisində aşağıdakı şirkətlər iştirak etdi: Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, "BP Eksploreyşn" (Böyük Britaniya), "Statoyl" (Norveç), "Ramko" (Böyük Britaniya), "Yunokal" (ABŞ), "İtoçu Oil Eksploreyşn" (Yaponiya), "Turkish Petrolium" (Türkiyə) və " Delta hes" (Səudiyyə Ərəbistan). İki ölkə arasında iqtisadi əməkdaşlığın genişlənməsində Bakı – Ceyhan neft kəməri ilə yanaşı, Gürcüstanda keçməklə Türkiyəyə çatdırılan qaz kəməri də mühüm rol oynadı. Təsdiq olunmuş layihəyə görə bu kəmərin ümumi uzunluğu 1050 kilometrdir, bunun 490 kilometri Azərbaycan, 280 kilometri isə Gürcüstan ərazisindən keçməklə Türkiyəyə çatacaq. Qaz kəjəri 2005-ci ilə istismara verildi (Arıxov, 2008: 76).

1999-cu il noyabrın 18-də İstanbulda keçirilmiş ATƏT-in Sammiti çərçivəsində "Bakı Tbilisi-Ceyhan Əsas ixrac boru kəməri vasitəsilə Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası ərazilərindən xam neftin nəqli haqqında" Sazişin ABŞ Prezidenti B.Klintonun iştirakı ilə Türkiyə Prezidenti S.Dəmirəl, Azərbaycan Prezidenti H.Əliyev və Gürcüstan Prezidenti E.Şevardnadze tərəfindən imzalanması region ölkələrinin strateji əməkdaşlığı və Avropaya inteqrasiyası sahəsində ciddi addım idi.

Avrasiyanın birləşdirici nəqliyyat yolunda Çindən Avropaya qədər məsafəni 8000 km-ə qədər qısaldan Böyük İpək Yolu qədim zamanlardan bəri beynəlxalq ticarətin inkişafında xüsusi rolu olmuşdur. Azərbaycanla Gürcüstan İpək Yolunun üstündə yerləşdikləri üçün, bu yolun bərpası ilə iki ölkə arasında iqtisadi əməkdaşlıqda yeni istiqamət yarandı. Böyük İpək Yolunun əsas marşrutlarından biri bu gün TRASEKA kimi tanınan Avropa, Qafqaz, Asiya beynəlxalq dəhlizidir. TRASEKA proqramının əsas məqsədləri kimi aşağıdakı işlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur (Bayramov):

✓ Alternativ nəqliyyat dəhlizləri vasitəsilə yeni yaranmış müstəqil dövlətlərin Avropa bazarına çıxışına şərait yaratmaq və bu yolla onlara siyasi – iqtisadi dəstək vermək;

✓ Müstəqil dövlətlər arasında regional əməkdaşlığa təkan vermək;

✓ TACİS – TRASEKA proqramının köməyi ilə beynəlxalq maliyyə təşkilatlarının və özəl investorların cəlb edilməsini gücləndirmək;

✓ TRASEKA marşrutunu Transavropa şəbəkəsi ilə əlaqələndirmək (Arıxov, 2008, 87).

1993-cü ilin may ayında Brüsseldə Azərbaycan, Gürcüstan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan həmçinin Rusiya, Ukrayna, Ruminiya, Bolqarıstan, Türkiyə, İran, Çin, Pakistan nümayəndələrinin və Avropa İttifaqının Ali iştirakıilə birgə işgüzar görüş keçirildi. Bu görüşün nəticəsi kimi Transqafqaz beynəlxalq nəqliyyat dəhlizinin inkişafı Avropa İttifaqının texniki yardımı haqqında Brüssel Bəyannaməsi imzalandı. Böyük İpək Yolu, bi növ Gürcüstan və Azərbaycan dövlətinin iqtisadi blokdan çıxarılmasına, eləcə də bir qrup dövlətlərin iqtisadi inkişafını təmin etməyə bilavasitə köməklik göstərmişdir. Dəhlizlərin açılması öz növbəsində yeni layihələrin meydana gətirilməsinə imkan yaratdı. 2007-ci il noyabrın 21-də Bakı – Tbilis – Qars dəmir yolunun tikintisinə başlanması münasibətilə Tbilisidə səfərdə olan Azərbaycanın Prezidenti İlham Əliyev Gürcüstanın Prezidenti Mixail Sarkaşvili və Türkiyə Prezidenti Abdullah Güllə təkbətək görüşlər keçirdi. BTQ-ın tikintisi ilə bağlı Azərbaycan, Gürcüstan və Türkiyə arasında yekun sənəd 2007-ci il fevralın 8-də Tbilisidə imzalandı. Azərbaycan yolun Gürcüstan ərazisinə düşən hissəsinin tikintisi üçün bu ölkənin

"Marabda-Qarsı Dəmir Yolu" Məhdud Məsuliyyətli Cəmiyyətinə güzəştli şərtlərlə (illik 1%-lə 25 illiyə) 200 mln. ABŞ dolları məbləğində kredit ayırmışdır. Layihənin ümumi dəyəri isə 600 mln dollardan artıqdır. SOCAR Energy Georgia MMC Gürcüstanın qazla təmin edilməsində mühüm rol oynayır. 2006-cı ildə qurulan bu şirkət yalnız Gürcüstan ərazisində fəaliyyət göstərir. SOCAR Energy Georgia MMC-nin əsas fəaliyyət sahəsi Gürcüstanda neftin topdan və pərakəndə satışı, neft və neft məhsullarının, həmçinin mayeləşdirilmiş qazın ölkəyə idxalı, neft terminalı və anbarlarının tikintisidir. Şirkət Gürcüstandakı neft satışının 72%, dizel satışının isə 61%-nə nəzarət edir, bundan başqa, Kulevi neft terminalı da şirkətin ixtiyarındadır. Ümumiyyətlə, 2019-ci ildə Azərbaycan və Gürcüstan arasında ticarət dövriyyəsi 580 mln. dollar olub. Ölkələrimiz Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu, Cənub-Qərb və digər beynəlxalq tranzit dəhlizlərinin inkişafında fəal əməkdaşlıq edir (3).

Gürcüstanın Azərbaycan və Türkiyə ilə strateji tərəfdaşlığını rəsmiləşdirən məqamlardan biri kimi 2002-ci ilin aprelində üç ölkənin imzaladığı «Trabzon razılaşması»nı göstərmək olar. Regionun enerji təhlükəsizliyi və müstəqilliyini təmin etmək üçün üç ölkənin daxili işlər nazirlərinin imzaladığı bu sənəd terrorizm və aqressiv separatizmə qarşı mübarizədən tutmuş, çirkli pulların yuyulması və neft-qaz borularının birgə mühafizəsinədək kifayət qədər geniş spektri əhatə edir (Həsənov, 2006: 488).

İki ölkə arasında iqtisadiyyatın digər sahələri ilə yanaşı aqrar-sənaye kompleksi istiqamətində də əməkdaşlıq əlaqələri inkişaf edir. 2011-ci ildə Gürcüstandan ölkəmizə 12754,9 min ABŞ dolları dəyərində bar gətirən ağaclar, kolluqlar, peyvənd edilmiş və edilməmiş tinglər, heyvan və bitki mənşəli piylər və yağlar, mandarin və digər sitrus meyvə məhsulları, kartof, tərəvəz bitkilərinin toxumu, ədviyyatlar və digər kənd təsərrüfatı məhsulları idxal edilmişdir. Ölkəmizdən Gürcüstana isə 17346,4 min ABŞ dolları dəyərində faraş meyvə-tərəvəz, bitki yağları, meyvə-tərəvəz konservləri, şəkər tozu, çay və digər aqrar istehsal məhsulları ixrac olunmuşdur (5).

Azərbaycan Respublikası ilə Gürcüstan arasında aqrar elmi-tədqiqat sahəsində əməkdaşlıq əlaqələri mövcuddur.Belə ki, Azərbaycan Elmi-Tədqiqat Əkinçilik Institutu ilə Gürcüstan Elmi-Tədqiqat Bitki Mühafizəsi İnstitutu arasında Quraq Bölgələrdə Beynəlxalq Kənd Təsərrüfatı Tədqiqatları Mərkəzinin (İCARDA) maliyyə dəstəyi ilə taxıl əkinlərində xəstəliklərin arealının müəyyənləşdirilməsi üzrə vaxtaşırı birgə ekspedisiyalar keçirilir. Azərbaycan Elmi-Tədqiqat Üzümçülük və Şərabçılıq İnstitutunun Gürcüstanın müvafiq elmi-tədqiqat institutu ilə əməkdaşlıq əlaqəsi davam etdirilir. İki ölkə arasında mütəmadi olaraq aqrar elmi tədqiqatların nəticələri barədə informasiya mübadiləsi aparılır (Azərbaycanın xarici ticarəti, 2019: 70).

Azərbaycan - Gürcüstan arasında xarici ticarət dövriyyəsi illər üzrə aşağıdakı kimi dəyişmişdir. 2015-ci ildə - 6234379 $; 2016-cı ildə - 5641894 $; 2017-ci ildə - 468 108,3 $; 2018-ci ildə - 561 905,5 $; 2019-cu ildə isə 579 440,7 $ olmuşdur.

Xarici ticarət dövriyyəsində Gürcüstan Azərbycanın əməkdaşlıq etdiyi ölkələr arasında yeri illər üzrə dəyişmişdir. Xüsusi çəkisi müvafiq illər üzrə aşağıdakı kimi dəyişmişdir: 2015-ci ildə 2%; 2016-ci il 2,6%; 2017-ci il 2,1%; 2018-ci il 2,3%: 2019-ci ildə isə 1,9% olmuşdur. Ölkələr arasında yeri isə aşağıdakı kimidir: 2015-ci ildə 15; 2016-ci il 10; 2017-ci il 13; 2018-ci il 12; 2019-ci ildə 16-cı yerdə dayanmışdır (Ramazanov, 2015: 99).

Azərbaycanın Gürcüstandan idxal etdiyi məhsullara - Diri iribuynuzlu heyvanlar, İribuynuzlu heyvan əti, quş yumurtaları, kartof, mineral və qazlı sular, təbii qum, dərman vasitələri, mineral gübrələr, sement, sürtkü yağları, elektrik enerjisi, sabun, rezin şinlər, ayaqqabı, metal konstruksiyalar, qara metallardan mətbəx peçləri və cihazları, məişət kondisionerləri, məişət soyuducuları, paltaryuyan maşınları daxildir (Azərbaycanın xarici ticarəti, 2019: 180).

Azərbaycanın Gürcüstana ixrac etdiyi məhsullara – kartof, tərəvəz, meyvə, çay, bitki yağları, Marqarin, qida üçün yararlı digər qarışıqlar, makaron məmulatları, meyvə və tərəvəz koservləri, meyvə və tərəvəz şirələri, tütün, gips, reaktiv mühərriklər üçün kerosin yanacağı, ağır destilyatlar və ya digər məqsədlər üçün qazoyllar, sürtkü yağları, təbii qaz, elektrik enerjisi, kağız və kartondan sanitar-gigiyenik məmulatlar, sintetik kompleks saplardan parçalar, izolyasiya edilmiş məftil və kabellər aiddir.

Azərbaycan və Gürcüstan arasında Beynəlxaq müqayisələrə gəldikdə isə, Azərbaycanın ixracı 2018-ci ildə 15,3 mlrd $, Gürcüstanın ixracı 2,7 mlrd $, Azərbaycanın idxalı 8,8 mlrd $, Gürcüstanın idxalı 7,9 mlrd $, Azərbaycanın saldosu 6,5 mlrd $, Gürcüstanın saldosu isə 5,2 mlrd $ olmuşdur (8).

Davamlı iqtisadi inkişaf, maliyyə imkanlarının artması, özəl sektorun inkişafı Azərbaycanı eyni zamanda investisiya ixracatçısına çevirmişdir. Bu ölkələr sırasına Türkiyə, Rusiya, Monteneqro,

Serbiya, İsveçrə ilə yanaşı Gürcüstanıda misal göstərmək olar, bu ölkələrə müxtəlif sahəlırin inkişafı üçün investisiya yatırılmışdır (9).

2018-ci ilin hesabatına əsasən Gürcüstanın Azərbaycana ixracı illik müqayisədə 98,2% artaraq 385 mln. 993,3 min dollar təşkil edib.Gürcüstanın ixracının 14%-i Azərbaycanın payına düşüb. Bu göstərici ilə Azərbaycan Gürcüstan məhsullarının ən çox ixrac olunduğu ölkə olub.

Azərbaycan isə Gürcüstana 449 mln. 789,4 min dollar dəyərində məhsul ixrac edib ki, bu da illik müqayisədə 8,6% çoxdur. Azərbaycan Gürcüstanın ümumi idxalında 6% paya sahib olmaqla, qonşu ölkənin dördüncü əsas idxal tərəfdaşı olub (10).

## Nəticə

2018-ci ilin ilk 10 ayı ərzində Gürcüstanın ümumi xarici ticarət dövriyyəsi 0 mlrd. 305,9 mln. dollar təşkil edib ki, bu da illik müqayisədə 20,5% çoxdur. Qonşu ölkənin ixracı 24,5% artaraq 2 mlrd. 751 mln. dollar, idxalı isə 19,2% artaraq 7 mlrd. 555 mln. dollar təşkil edib. 2018-ci ilin statistik göstəricilərinə əsasən yanvar-aprel aylarında Gürcüstanın ən çox benzin və dizel yanacağı, eləcə də digər neft məhsulları aldığı üçüncü ölkə Azərbaycan olmuşdur (11).

2019-cu ildə Gürcüstanın Azərbaycandan karbohidrogen qazlarının idxalının həcmi əvvəlki illə müqayisədə 3,6% və ya 59 914,7 ton artaraq 1 723 048 tona çatıb. Hesabat dövründə idxal edilən məhsula görə Gürcüstan tərəfinin etdiyi ödəniş 286 210,5 min ABŞ dolları təşkil edib ki, bu da 2018-ci illə müqayisədə 12 278,3 min dollar və ya 4,5% çoxdur. Belə ki, 2018-ci ildə bu məbləğ 273 932,2 min dollar təşkil edib (12).

## Ədəbiyyat


1. Arıxov, C. (2008). “Azərbaycan - Gürcüstan: dostluq münasibətlərinin inkişaf dinamikası”.Bakı 127s.
2. Bayramov, V. “Azərbaycanın xarici iqtisadi əlaqələri genişlənir”, Xalq qəzeti, Bakı.
3. https://lib.aliyevheritage.org/az/1407885.html
4. Həsənov, Ə. (2006). “Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti”. Bakı, 637s.
5. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan%E2%80%93G%C3%BCrc%C3%BCstan_m%C3%BCnasib%C9%99tl%C9%99ri
6. “Azərbaycanın xarici ticarəti”. (2019). Statistik məcmuə. Bakı, 216 səh.
7. Ramazanov, C. (2015). “Azərbaycanın xarici ticarət əlaqələrində sertifikatlasdırmanın rolu”, Bakı. 99 səh.
8. https://azertag.az/xeber/Azerbaycan_oten_il_Gurcustana_586_milyon_dollarliq_mehsul_ixrac_edib-1236162
9. https://azertag.az/xeber/Azerbaycan_Gurcustana_neft_mehsullari_ixrac_eden_olkeler_sirasinda_uchuncudur-1284067
10. https://fins.az/az/senaye/223084/azerbaycan-gurcustana-daha-cox-qaz-ixrac-edib/ http://caucasusstudies.az/e-kitabxana/elmi-meqale/88-azerbaycan-gurcustan-munasibetleri.html
11. https://azertag.az/xeber/Azerbaycan_Gurcustana_neft_mehsullari_ixrac_eden_olkeler_sirasinda_uchuncudur-1284067
12. https://report.az/xarici-siyaset/deputat-azerbaycan-gurcustan-munasibetleri-strateji-ehemiyyet-dasiyir/


**Rəyçi: f.e.d. Anar Kərimov**

Göndərildi: 11.06.2021 Qəbul edildi: 07.08.2021